# HR Bootcamp tədris planı

| | |
|---|---|
| İnsan Resursları İdarə olunmasından ən müasir funksional gözləntilər və İşə Qəbul prosesinin qurulması (12 saat) | Bu təlimdə siz istedad ehtiyaclarının planlaşdırılması, İşə qəbul strategiyasının müəyyənləşdirilməsi, namizəd hovuzunun hazırlanması və proses ardıcıllığını əhatə edən siyasət formalaşdırmağı öyrənəcəksiniz. Təşkilat daxilində və onun xaricində iş elanlarının hazırlanması, sosial media üzərindən işə qəbulun həyata keçirilməsi, iş agentlikləri ilə iş, işçi tövsiyəsi, vəzifə tələblərinin təhlili və s haqqında geniş məlumatlar alacaqsınız.<br>Güclü işə götürən brendini yaratmaq üçün tələb olunan işə qəbul funksiyasını qurmaq sizin üçün çətin olmayacaq. |
| İnsan Resursları Biznes Tərəfdaşlıq modelinin qurulması təlimi (8 saat) | Bu təlimlə İR və digər funsiyaların qarşılıqlı və effektiv işləmə mexanizmini və mədəniyyəti yaratmaqla İR-nı administrativ roldan daha stratejik rola keçidi təmin etmək və təşkilatı hədəflərin əldə olunmasında biznesə daha çox dəstək olmaq üçün tələb olunan bilikləri əldə edəcəksiniz. Biznes və işçilər arasında olan kommunikasiya qırıqlığını aradan qaldıracaq və İnsan Kapitalının düzgün idarəedilməsi, işçilərin təlim və inkişaf proqramlarını biznes strategiyası ilə əlaqəli şəkildə reallaşdırmağa imkan verəcək mexanizmləri öyrənəcəksiniz. Siz Dəyişikliklərin düzgün kommunikasiyası və idarəedilməsini tənzimləyəcək və biznes yönümlü İR funksiyası formalaşdıra biləcəksiniz. |
| Şirkət gəlirliliyinin artmasında, əməliyyat xətalarının və xərclərin azaldılmasında, ədalətli mükafatlandırma sistemlərinin qurulmasında «Performans İdarəetmə» sisteminin rolu (8 saat) | Bu təlimdə siz, təşkilatınızın gəlirliliyini və biznes proseslərinin effektivliyini artırmaq, xərcləri və əməliyyat xətalarını azaltmaq üçün Korporativ Performans İdarəetmə Sistemləri rolunu öyrənəcəksiniz. İşçi məmnuniyyəti və bağlılığının artırılmasının, işçi axınının azaldılmasını, işçilər üçün karyera və inkişaf imkanlarının yaranmasının, şirkətin təşkilati hədəflərinin, layihə və planlarının uğurla yerinə yetirilməsinin yollarını öyrənəcəksiniz. |
| Effektiv Əmək Haqqı və Mükafatlandırma Sistemlərinin Qurulması və İdarə Edilməsi (9 saat) | Təlimdən əmək haqqının şirkət işçiləri arasında ədalətli və balanslı bölüşdürülməsi yollarını öyrənəcəksiniz. Bunu elmi və obyektiv yol olan İş Dəyərləndirməsi üsulu ilə öyrənəcəksiniz. HAY İş Dəyərləndirmə metodologiyası, strukturu və çalışma prinsipləri, İş Dəyərləndirmə nəticələrinin idarə olunması, Əmək haqqı mexanimzinin qurulması, Toplam mükafat anlayışı və Ödəmə siyasətinin dizaynı və nəhayət Performans və dərəcə əsaslı əmək haqqı sistemi ilə bağlı biliklər əldə edəcəksiniz. |
| Əmək məcəlləsi və Hüquqi risklərlə bağlı preventiv tədbirlərin təmin olunması (16 saat) | Bu təlimdə siz işə götürən subyektindən asılı olmayaraq əmək qanunvericiliyi üzrə qarşınıza çıxa biləcək hər hansı bir risklərdən necə sığortalana biləcəyinizlə bağlı əlavə biliklər əldə edəcəksiniz. Bu biliklər sayəsində siz şirkət sahiblərini yarana biləcək cərimə və sanksiyalardan qoruya biləcəksiniz. |